**Etibarlıq müddəti bitmiş və ya səhifələri dolmuş pasportun yeni pasportla əvəz edilməsi üçün Azərbaycan Respublikasının Los Ancelesdəki Baş konsulluğunun konsulluq dairəsində yaşayan vətəndaşlar aşağıdakı sənədləri təqdim edirlər:**

- Etibarlıq müddəti bitmiş və ya səhifələri dolmuş pasportun əsli və pasportun 2, 3, 4, 5 və sonuncu səhifələrinin, habelə ABŞ-da yaşamaqla bağlı ABŞ İmmiqrasiya Xidməti və Azərbaycan Respublikasının Vaşinqtondakı Səfirliyi tərəfindən qeydlər aparılmış səhifələrin üç nüsxədə surəti;

- Ərizə-Anket 2 nüsxədə tərtib edilməlidir; *Ərizə-Anket Azərbaycan dilində dəqiq və aydın yazılmalıdır. 1.9 və 16-cı qrafada ərizəçi imzalamalı və onun imzası notariusda və ya şəxsən Baş Konsulluğa gəldikdə, Baş konsulluqda təsdiq etdirilməlidir. Latın və kiril əlifbası arasındakı fərq üçün latın qrafikalı Azərbaycan əlifbasına* **Forms** *alt səhifəsində* **ABC** *faylında baxa bilərsiniz. Pasportun alınması haqqında Ərizə-Anketi bilavasitə* **Forms** *alt səhifəsindən əldə edə bilərsiniz.*

- Pasport üçün 4 ədəd rəngli fotoşəkil. 18 yaşına çatmış və ilk dəfə pasport alan vətəndaşlar şəkillərdən birini notariusda təsdiq etdirməlidir.

- Qan qrupu haqqında tibbi arayış. *Pasportunda qan qrupu qeyd olunan vətəndaşlar bu arayışı təqdim etmirlər.*

- Baş konsulluqda konsulluq qeydiyyatında olmayan vətəndaşlar tərəfindən eyni zamanda 118a Formalı anket doldurulmalı və **Green card** və **Social security** sənədlərinin 2 nüsxədə notariusda təsdiq edilmiş surətləri əlavə edilməlidir. ***118a Formanı*** *bilavasitə* **Forms** *alt səhifəsindən əldə edə bilərsiniz.*

- ABŞ-da təhsil alan tələbələr eyni zamanda oxuduqları tədris müəssisəsindən arayışı, hərbi qulluq barədə sənədi və ya çağırış müddətinin uzadılması barədə arayışı da təqdim etməlidirlər.

- 18 yaşına çatmış və ilk dəfə pasport alan vətəndaşlar o cümlədən aşağıdakı sənədləri təqdim etməlidirlər:

  a) Azərbaycan Respublikasında və ya konsulluq tərəfindən verilmiş doğum haqqında şəhadətnamənin notariusda təsdiq edilmiş surətini;

  b) valideynlərin pasportlarının 2, 3, 4, 5 və sonuncu səhifələrinin, habelə ABŞ-da yaşamaqla bağlı ABŞ İmmiqrasiya Xidməti və Azərbaycan

Respublikasının Vaşinqtondakı Səfirliyi tərəfindən qeydlər aparılmış səhifələrin iki nüsxədə surəti;

- Pasportunu itirmiş şəxs yeni pasportun alınmasına dair müraciət etdikdə, pasportun itdiyi ərazi üzrə polis idarəsindən, onun pasportunun itməsi ilə bağlı müraciət etməsini təsdiq edən müvafiq arayış almalı və pasportun itirilməsi barədə ərizə ilə birlikdə Baş konsulluğa təqdim etməlidir. Pasportunu itirmiş şəxs eyni zamanda cərimə ödəməlidir.

- 40 Azərbaycan manatı məbləğində dövlət rüsumu.Həmin rüsum aşağıdakı bank hesabına köçürülməli və ödənişi təsdiq edən qəbzin əsli sənədlərə əlavə edilməlidir.

| | |
|---|---|
| **Beneficiary:** | Treasury Department of Central Government Organizations (MOXI) |
| **Bank name:** | İnternational Bank of Azerbaijan, Head Office, Baku; |
| **Bank account:** | COR 328518 USD 3211-01 |
| **SWİFT Code:** | IBAZAZ2X. |

- Konsulluq əməliyyatı üçün 40 ABŞ dolları məbləğində Money Order. Həmin məbləğ Baş konsulluğun adına yazılmalıdır *(payable to the order of Consulate General of Azerbaijan)*.

- Hazırladığınız sənədləri şəxsən deyil, poçtla göndərdiyiniz təqdirdə, zərfin üstünə ünvanınız yazılmalı və yeni pasportun geri qaytarılması üçün həmin zərfə, üzərində geri ünvanı əks etdirən zərf (*self-addressed stamped return envelope*) qoyulmalıdır.

## 16 yaşına çatmamış Azərbaycan Respublikası vətəndaşlarının valideynlərinin pasportlarına daxil edilməsi üçün tələb olunan sənədlər

- Azərbaycan Respublikasında və ya konsulluq tərəfindən verilmiş doğum haqqında şəhadətnamənin notariusda təsdiq edilmiş surəti;
- Fotoşəkilin daxil ediləcəyi pasportun əsli;
- Daxil ediləcək uşaqların rəngli fotoşəkilləri – 3 ədəd;
- Valideynlərin pasportlarının surətləri – 1 nüsxə;
- Valideynlərin nikah şəhadətnamələrinin surəti – 1 nüsxə;
- Valideynlərin razılıq ərizəsi; *fotoşəkil ananın pasportuna daxil edildikdə, atanın etiraz etməməyi haqqında notariusda təsdiq edilmiş razılıq ərizəsi.*